Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası




# Dizayn sənəti və uşaqların bədii – estetik təfəkkürünün inkişafında uşaq kitabxanalarının rolu

Dizayn sənəti və uşaqların bədii – estetik təfəkkürünün inkişafı ilə bağlı mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait

Bakı -2023

**Tərtibçi:** **Ruhiyyə Məmmədli**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**Dizayn sənəti və uşaqların bədii – estetik təfəkkürünün inkişafında uşaq kitabxanalarının rolu** mövzusunda mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed.R.Məmmədli; ixt.red. və burax.məsul Ş. Qəmbərova;-Bakı:F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2023. – 58 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2023**

## Dizayn sənəti və uşaqların bədii – estetik təfəkkürünün inkişafında uşaq kitabxanalarının rolu

İncəsənətin muxtəlif nov janrları, muxtəlif nəsildən olan insanların, o cumlədən uşaqların və yeniyetmələrin bədiilik inkişafında muhum rol oynamışdır. Əgər görkəmli rəssamların, bəstəkarların və digər sənət adamlarının kecdiyi həyat yoluna nəzər salsaq gorərik ki, onlar sənət aləmində ilk uğurlu addımlarını məhz məktəbəqədər dovrdə atmış, boyuk sənətə gedən yolun cığırına duşmuşlər. Uc- beş yaşlarında cəkdikləri rəsmlərlə, qurduqları ev-eşikləri, bəstələdikləri musiqi numunələri ilə boyuk sənətkarların rəğbətini qazanan istedadlı uşaqlar heyrət və heyranlıqla qarşılanmışlar.

"Hər bir uşaq kəşf olunmamış dunyadır" deyənlər də haqlıdırlar. Doğrudan da muxtəlif yaş dovrlərini kecən uşaqların ətraf aləmə tələb və cəmiyyət hadisələrinə, ətrafda olan əşya və obyektlərə, insanların peşələrinə, ozlərini necə aparmaqlarına xususi maraq gostərmələri, onların incəsənət sahəsindəki movzu, janr seciminə də musbət təsir gostərir. Apardığımız muşahidələr gostərir ki, məktəbəqədər dovrdə uşaqların əli qələm, karandaş tutduqları vaxtda, habelə ibtidai siniflərdə kicikyaşlı məktəblilər ətraf aləmdə gordukləri əşya və obyektlərin şəklini cəkməyə-rəsm işləməyə, onların formasını qurmağa daha cox meyl edirlər.

**"Hər kəs üçün dizayn" prinsipi necə tətbiq olunur?**

Əlbəttə ki, təbiətə uyğun uşaq meydançaları dizayn etməklə. Bəs uşaq meydançaları təbiətlə necə uyğunlaşır? Cavab çox sadədir: təbiətdən ilham alaraq. Məsələn, şəhərdə təbii materiallardan istifadə edərək fiziki məhdudiyyətli uşaqlar

üçün oyun meydançaları tikilə bilər. Çünki təbii ərazilər uşaqlara sakitləşdirici təsir göstərir.
“Hər kəs üçün dizayn”, əslində, düşünüldüyü qədər çətin həll deyil. Bunun üçün sadə memari standartları tətbiq etmək kifayət edir. Əlbəttə, bir az da yaradıcılıq lazımdır.
Uşaqların oyun meydançalarında təhlükəsizlik, əyləncə, öyrənmə, kəşfiyyat, paylaşma və ortaq iştirak kimi elementlər yer almalı və dizayn fiziki məhdudiyyətli uşaqlarla digər uşaqlar arasındakı fərqi minimuma endirmək məqsədi daşımalıdır. Bunun üçün struktur dizaynı (oyun avadanlığı, pilləkənlər, müəyyən ölçülərdə və standartlarda digər oyun avadanlıqları) və bitki dizaynı ilə, xüsusilə, şəhər parklarında və oyun meydançalarında, fiziki məhdudiyyətli olan və olmayan uşaqların birlikdə oynaya biləcəyi ərazilərdə (universal dizayn prinsipləri ilə) bütün uşaqların iştirak etdiyi oyunlar hazırlanmalıdır. Çünki uşaqlar arasında qarşılıqlı sosial əlaqə çox vacibdir. Təbii elementlərlə işlənmiş oyun meydançaları aktivliyi və ya passivliyindən asılı olmayaraq, fiziki məhdudiyyətli uşaqların oyunlarda iştiraklarını təmin edə bilər. Digər uşaqlarla yaradıcı, iştirakçı və istiqamətləndirici oyunlar oynamaq imkanı uşaqların sosial inkişafına da çox kömək edir.

Salınan parklarda uşaq oyun meydançaları nə sadəcə fiziki normal uşaqlara, nə də sadəcə fiziki məhdudiyyətli uşaqlara da xitab etməlidir. Bu müasir şəhər mədəniyyətindən çox uzaq yanaşmadır. Uşaqların birlikdə sosiallaşmağı, bədənələrini, bacarıqlarını kəşf etmələri, eyni zamanda fiziki inkişafları onların ən böyük ehtiyaclarından biridir. Bunu təmin etmək ən çox parklarda, açıq hava məkanlarında

mümkündür. Bu məsələyə həmişə diqqət etmək lazımdır. Sadəcə parklarda deyil, küçələrdə, yollarda, hətta evlərdə də.

Uşaqlar erkən yaşlarından şəkil cəkməyə, plastilin və gildən fiqurlar duzəltməyə, oxumağa, oynamağa, musiqi alətlərində calmağa başlayırlar. 1,5 yaşdan 3 yaşına qədər olan dovrdə uşağın şəkil cəkməsi daha cox karandaşla oynamaqdır. 3-4 yaşında uşaq əşyaların formasını, rəngini, boyukluyunu və vəziyyətini daha tam və daha dəqiq verməyə başlayır. Əlbətdə, o, fiqurları cox adi şəkildə cəkir. Onun cəkdiyi şəkildə dərinlik olmur, təsvirlər mustəvi şəkilində olur.

Uşaqlar şəkil cəkmək, yapmaq, opplekasiya ilə, əldəduzəlmə oyuncaqlar hazırlamaqla məşğul olarkən, xətlərin və rənglərin harmoniyasını başa duşməyi oyrənir, gozəllik haqqında təsəvvur alırlar.

Sinif şəkilində istinad etdiyimiz bu fikirlərdə uşaqların bədii-estetik təfəkkurunun və bunun nəticəsi olan estetik fəaliyyətin muxtəlif cəhətləri əks olunmuşdur. İlk baxışda elə təsəvvur yaranır ki, həmin fikirlərdə erkən yaşlarında, uşaqların rəsm qabiliyyətinin, təsviri fəaliyyətinin əsas xususiyyətləri nəzərə catdırılmışdır. Bu doğrudan da belədir. Lakin uşaqların bədii fəaliyyətinin əsas cəhətləri kimi nəzərə catdırılan fikilərdə dizayn sənətinin unsurləri də nəzərə carpır. Cunki dizayn sənəti mahiyyətinə, əsas komponentlərinə gorə təsviri incəsənətlə-təsviri fəaliyyətlə sıx bağlıdır. Muxtəlif illərdə nəşr olunan ensiklopediyalarda, luğət məlumat kitablarında dizayn sənətinin mənası izah olunarkən, mənşəi “dizayn” ingilis sozundən olan bu anlayışla bağlı lahiyələşdimək, cəkmək, plan layihə, rəsm,

kompazisiya qurmaq kimi bacarıqlarının uzərində dayanılır. Həmcinin gostərilir ki, dizayn əşyaların layihələşdirilməsində insanın əmək, məişət və istirahət şəraitinin əlverilişliyini nəzərə almaqla, əşyaların estetik cəhətdən harmoniyasını təmin edən fəaliyyət sahəsidir. Bu tərifdən belə bir nəticəyə gəlmək olur ki, dizayn eyni zamanda sintetik (bir necə sənət sahəsini ozundə birləşdirən) incəsənətin bir novu kimi qiymətləndiilməlidir. İstər məktəbəqədər yaşlı uşaqların, istərsə də kicik yaşlı məktəblilərin, yeniyetmələrin təsviri fəaliyyətində dizayn sənətinin unsurlərinin nəzərə carpması oz novbəsində belə bir fikir soyləməyə əsas verir ki, onlar planlaşdırma, lahiyələşdirmə, konstruksiya etmə, təsvirinin imkanlarına xususi diqqət yetirmə kimi bacarıq və kefiyyətlərlə, dizayn sənətinə olan maraq və meyllərini numayiş etdirirlər. Daha aydın olmaq ucun məktəbəqədər yaşlı uşaqlarla apardığımız təcrubənin gedişinə diqqət edək:

**Birinci mərhələ.** Uşaqlara muxtəlif ölculu tikinti materialları muxtəlif ölculu, muxtəlif rəngli, kicik taxta lovhələr, ağac, gul-cicək muqəvvaları, bəzəkvurma ucun əlverişli materiallar verilir.

**İkinci mərhələ.** Uşaqlara tapşırıq verilir ki, onlar həmin materiallardan istifadə edərək insanların həyatı , məişəti ucun lazım olan yerlərin maketini hazırlasınlar.

**Ucuncu mərhələ.** Hazır olan işləri uşaqlar özləri qiymətləndirsinlər. Uc mərhələdən ibarət olan həmin təcrubə maraqlı nəticələrə gəlməyə, fikir və mulahizələr irəli suməyə əsas verdi. Belə ki, təcrubədə iştirak edən 10 nəfər uşaqdan 3-u bir otaqlı mənzilin, 4 nəfəri iki otaqlı mənzilin maketini qurdu. Təcrubədə iştirak edən uşaqlardan 3 nəfəri isə oyun

meydancasını yaratmağa ustunluk verdi. Uşaqladan 5 nəfəri mənzilə girişin yolunu xususi lovhələrlə gostərmiş və yolun kənarına gullər, yaşıl kollar əkmişlər.
Mənzil quran uşaqlardan 2 nəfəri isə nədənsə bu cəhətə fikir verməmişlər.
Maraqlı cəhət budur ki,təcrubədə iştirak edən uşaqlar dizayn unsurləri ilə başa gələn bu işləri duzgun qiymətləndirdilər və unudulan cəhətləri də qeyd etdilər.
Uşaqların qısa lakin muhum əhəmiyyət kəsb edən cavablarından belə məlum olur ki, onlar tikilən evlərin daha gozəl olmasını, qapı və pəncərələrin rəngbərəng naxışlarla bəzədilməsinə, mənzilə giriş yollarının nəzərə carpmasına xususi səy gostərmiş, oz "əsərlərində" dizayn unsurlərinin tətbiqinə nail olmuşlar.

Yeri gəlmişkən qeyd edək ki, istər məktəbəqədər, istərsə də kicik məktəbyaşı dovrundə uşaqların bu cur işlərinə biganə qalanlar, onları adi uşaq məşğuliyyətinin nəticələri kimi qiymətləndirənlər də var. Bizə elə gəlir ki, problemə bu cur yanaşılmasına haqq qazandırmaq olmaz. Cunki, uşaqların erkən yaşlarından yaradıcılığa meyl etmələri oz novbəsində bədii təfəkkurun yaradıcılığa yaradıcılıq məhsullarına cevrilən nəticələri kimi qiymətləndiilməlidir.

Uşaqların əl işləri, o cumlədən dizayn sənəti sahəsindəki əl işləri xususi diqqət və qayğı obyektinə cevrilməlidir. Belə bir cəhəti də unutmaq olmaz ki, uşaqlar həmin işləri mustəqil yerinə yetiirlər. Movzu, məzmun, forma, vasitə cəhətdən ahəngdarlıq yaradan işlərə uşaqlar



xususi diqqət yetirirlərsə, deməli uşaq duşuncəsi, uşaq təfəkkuru yaradıcı mahiyyət kəsb edir.



Dizayn sənəti istər-istəməz uşaqları muxtəlif nov incəsənət sahəsi ilə, o cumlədən təsviri incəsənətin muxtəlif novləri ilə daha yaxından tanış olmaq zərurətini qarşıya qoyur. İncəsənət əsərləri ilə tanışlıq, yaxından unsiyyət uşaqların təfəkkur qavrayış, təxəyyul və yaddaşını inkişaf etdirir, duyğu və hiss uzvlərinə musbət təsir gostərir.Unutmaq olmaz ki, bədii yaradıcılığın butun novlərində milli xususiyyətlər əsas yerdə dayanır və bu fakt elmi araşdırmalara aparan tədqiqatcıların nəzər-diqqətini daima cəlb etmişdi. Məs.adətən, memar zamanın is təyinə cavab verən tikili və yaxud ansambl ucaldarkən, rəssam mohtəşəm bir sənət əsəri yaradarkən, dunya şohrətli bir xalcanın eskizini verən rəssam eyni zamanda onların bədii surətini, milliliyini işləmiş olur.

Problemlə əlaqədar uşaqlara izah etmək lazimdır ki, əgər olkəmizin təbii gozəlliyini dağlar, caylar, göllər, meşələr, ətraf muhit muəyyənləşdirirsə, insan əliylə yaradılan gozəlliklər – şəhərlər, qəsəbələr, rayonlar, kəndlər, parklar, xiyabanlar, abidələr xalqın mədəni səviyyəsini əks elətdirir. İncəsənətin gundəlik həyatda və istehsalatda, sənayedəki yeri haqqında sohbət aparılarsa o halda incəsənətin bir qolu olan memarlıqdan XX illərin əvvəllərində formalaşmağa başlayan dizayndan danışmamaq mumkun deyil. Dizayn muasir cəmiyyətin murəkkəb fəaliyyətinə uyğun olaraq maddi

muhitin məqsədəuyğun qurulması, zovqlə hazırlanması ucun numunə layihələr hazırlayan bir sənət novudur.

Uşaqların bədii-estetk tərbiyəsi, onların bədii təfəkkur fəaliyyətinin inkişafını diqqət mərkəzində saxlayan mutəxəssis pedaqoqlar unutmamalıdırlar ki, dizayn sənəti və onun əsas vəzifəsi əşyanın funksiyası, onun məqsədəuyğun emal usulları və bədii əşya muhitinə rahatlıq, əlverişlilik və gozəllik yaradır.

Məhz bu baxımdan xalqımızın gələcəyi olan uşaqların gənc nəslin şuurunda, təfəkkurundə dizayn sənəti ilə bağlı bilgiləri mohkəmləndirmək, daha da genişləndirmək zəruridir. Bunun ucun motəbər elmi mənbələrə istinad etmək, bu prosesdə respublikamızda nəşr olunan məqalələrlə, vəsaitlərlə, habelə xarici ixtisas ədəbiyyatından tərcumə edilmiş numunələrlə tanış olmaq, problemin elmi-pedaqoji təminatına şərait yaratmaq təxirəsalınmaz vəzifələrdən sayılmalıdır. Uşaq, yeniyetmə və gənclərin maraq, meyl və bacarıqlarının, intellektual səviyyələrinin, yaradıcılıq qabiliyyətlərinin inkişafı, fiziki cəhətdən sağlam böyümələri üçün əlverişli şəraitin yaradılmasında, onların istirahətinin, asudə vaxtlarının mənalı təşkilinin təmin edilməsində məktəbdənkənar təhsilin böyük rolu var.

Dizayn sənəti ilə bağlı innovativ dərnəklərin şagirdlərin istifadəsinə verilməsi məqsədəuyğundur. Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində Rəqs, Rəsm, Memarlıq-dizayn, Qum sənəti, Xalçaçılıq, Texniki Yaradıcılıq Mərkəzində Robotexnika və STEAM, Mental-Aritmetik, Bijuteriya, Ağac üzərində oyma, Ağac üzərində yandırma, Turist Diyarşünaslıq Mərkəzində isə Dulusçuluq, Heykəltaraşlıq,

Bədii tikmə, Toxuculuq dərnəkləri olmaqla innovativ dərnək yaradılır.

Ümumilikdə yaradılan yeni dərnəklər üçün elektron lövhə, kompüter, robot dəsti, hana və toxuma alətləri, boya və xüsusi kağızlar, elektriklə yandırma aləti, hesablama alətləri, elektrikli qum stolu, dəst rəqs geyimi, heykəltaraşlıq və elektrikli dulusçuluq dəzgahları, müxtəlif materiallar, alətlər dəsti, elektrikli avadanlıqlar,müxtəlif rənglərdə ipək və sadə saplar, toxuma iplər, eləcə də lazım olan digər xammal və mebellər alınmışdır. Bu dərnəkdə şagirdlərimizin dəqiqlik, analitik düşünmə, problem həll etmə, qərar vermə, komanda ilə işləmək bacarıqları formalaşacaq, onlara robotexnika, 3D modelləşdirmə və çap, proqramlaşdırma, 3D printerlə işləmək, mühəndislik və dizaynerlik bacarıqları öyrədilir. Şagirdlərin robototexnika sahəsində bilik və bacarıqlarını artırmaq, onları bu sahədəki yarış və beynəlxalq olimpiadalara hazırlamaq məqsədilə yaradılan Robotexnika dərnəyində şagirdlərə məktəbdə alınmış biliklərin robotlar üzərində praktiki tətbiqi öyrədilir. Mühəndislik metodu ilə uşaqlara emalatxanada robotların qurulması, tədris otağında isə proqramlaşdırılması, onların hərəkət və dönmə üsulları öyrədilir, şagirdlər texnoloji innovasiyalara hazırlaşdırılır. Robotexnika dərnəyi uşaqlarda müasir biliklərə, yüksək texnologiyalara marağı artırmaqla yanaşı, bu dərnəkdə həmçinin şagirdlər dəqiqlik, analitik



düşünmə, problem həlletmə, qərarvermə, komanda ilə işləmək kimi bacarıqlar, həmçinin təhsil müəssisələrində əldə etdikləri bilikləri real tətbiqetmə imkanı da əldə edə bilirlər. Bununla da uşaqlarda mühəndisliyə maraq yaranır, informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə etmə bacarığı formalaşır, proqramlaşma üzrə bilikləri artır.

Şifahi hesablama bacarığı ilə yanaşı şagirddə özünə inam, özünü sərbəst ifadə etmə bacarığı formalaşdıran uşaqlara zehni və sürətli şifahi hesablama öyrədilir. Bu dərnəkdə uşaqlara hesab maşınından istifadə etmədən şifahi hesablama yolu ilə riyazi əməllərin cavablarını saniyələr içində düzgün tapmaq bacarığı formalaşır. Həmçinin Mental aritmetik dərnəyi şagirdlərdə riyazi təfəkkürün inkişafını, yaddaşın və qavramanın güclənməsini də formalaşdırır.

Yeniyetmə və gənclərin asudə vaxtlarının səmərəli təşkili və onların yaradıcılıq qabiliyyətinin üzə çıxarılması, estetik zövqünün formalaşmasında əvəszis rol oynayan Bijuteriya dərnəyində dərnək rəhbəri hazır alınmış müxtəlif rəngli muncuqlar, şəffaf və rəngli daşlar, rəngli ipək saplarla və digər materiallardan istifadə edərək boyun bağı, qolbağ, sırğalar, saç üçün aksesuarlar, yaxalıq nümunələrinin hazırlanma sirlərini dərnək üzvlərinə öyrədir.



Ağac üzərində oyma sənəti tətbiqi sənətin ən qədim, geniş yayılmış növlərindən biridir. Ölkəmizdə oyma, yonma, cızma üsulu ilə sənət əsərlərinin yaradılması tarixən mövcud olub. Ağac üzərində oyma dərnəyi uşaqlar tərəfindən sevilən

dərnəklərdən biridir. Bu dərnəkdə uşaqlar ağac üzərində müxtəlif fiqurların oyulması, yonulması və kəsilməsi üsullarını öyrənirlər. İlkin məşğələlərdə dərnək üzvlərinə oyma alətləri və ağac materialları haqqında geniş məlumat verilir. Məşğələdə dərnək rəhbərinin köməyi ilə uşaqlar müxtəlif sənət nümunələrinin yaradılması sirlərini öyrənirlər.




İnsanın daş dövründən yandırmaq üçün tapdığı ilk vasitə ağacdır. Ağac üzərində yandırma incəsənət üslubu ilə isti qələmi ağac üzərində hərəkətə gətirməklə hər bir əsəri yaratmaq mümkündür. Ağacın yanması ilə rəsm canlanır. Bu rəsmləri yaratmaq üçün qalaylama vasitəsi, istilik, texnika, hava temperaturunu dəyişmək, surətdən istifadə etmək lazım gəlir. Belə ki, ağac üzərində qəhvəyi rəngdə bir tərkib yaranır, özünəməxsus gözəlliyi ilə seçilir və əbədi incəsənət əsəri yaranır. Ağac üzərində yandırma dərnəyinə uşaqlar çox böyük həvəslə gəlir və sevərək bu sənətin sirlərini öyrənirlər. Dərnəkdə ilkin olaraq dərnək üzvlərinə yandırmada istifadə olunan ağac materialları və alətləri haqqında məlumat verilir, dərnək üzvləri müxtəlif mövzularda əl işləri hazırlayırlar.



Qum sənəti dərnəyində uşaqlara işıqlanmış masa üzərində qumla müxtəlif təsvirlərin çəkilməsi öyrədilir ki, bu da uşaqların asudə vaxtlarında rəssamlıq sənətinin sirlərinə yiyələnmələrində böyük rol oynayır. Nəticədə şagird qumdan istifadə etməklə bir-birindən maraqlı təsvirləri çəkməyi öyrənir. Bu sənət növü ilə məşğul olmaq uşaqlara sağlamlıq cəhətdən də müsbət təsir göstərir. Bunun üçün təlim müddətində əvvəlcə uşaqlara qumla təsvirin çəkilmə qaydaları öyrədilir. Bununla da uşaqlar müxtəlif fotoşəkillərə baxaraq təsvirlər işlədikdən sonra növbəti dərslərdə öz fantaziyalarından istifadə edərək maraqlı kompozisiyalar işləyirlər.



Rəqs dərnəyinin əsas məqsədi milli rəqslərimizi daim qoruyub saxlamaq və unutdurmamaqdır. Rəqs dərnəyi vasitəsilə uşaqlara rəqs sənətinin əsasları öyrədilir. Rəqs fizik və mənə şüurunu inkişaf etdirir, uşaqlara koordinasiya qurmağa kömək edir. Rəqs öyrənərkən təkrar məşqlər zehni çevikliyin inkişafına kömək edir. Rəqs dərnəyi uşaqlarda özünəhörmət, inam yaratmağa kömək edir. Bu, uşağın bir rəqs hərəkətini uğurla yerinə yetirdiyi zaman yaşadığı sevincin qarşılığında yaranır. Rəqs bir hərəkəti və ya hərəkətlər ardıcıllığını mənimsəmək üçün lazım olan təkrarlamada uşaqlara motivasiyanın dəyərini

öyrədir. Əylənmək rəqsin çox vacib hissəsidir. Rəqs ifadəli hərəkəti təşviq edir, təxəyyül və emosional sərbəstliyi inkişaf etdirir və uşaqlara bütün maneələri aşaraq əylənməyi öyrədir.





Uşaqların xəyal dünyaları çox genişdir. Rəsm dərnəyi bizə uşaqların daxili aləmi haqqında çox mühüm məlumatlar verir. Rəsm uşaqlar üçün bir növ özünü ifadəetmə formasıdır. Rəsm çəkmək uşaq üzərində sağ və sol beynin birlikdə çalışması, diqqətinin mərkəzləşməsi və özünə inam hisslərinin formalaşması kimi bir çox müsbət yöndə təsirlər yaradır. Rəsm uşaqlar üçün anlama bacarığının və yaradıcı gücünün ortaya çıxarılmasına kömək edir. Uşağın istifadə etdiyi rənglər, çəkdiyi fiqurlar, onun iç dünyasının kağıza əks etdirilmə formasıdır. Rəsm çəkərkən uşaqların şüuraltı hissləri də ortaya çıxır. Beləliklə, uşağın şüur altında qalan istək, xəyal, qorxu, maraq kimi düşüncə və hissləri rəsm vasitəsilə xaricə yansıyır. Bunlarla bərabər rəsm çəkməyin əl motorikasını inkişaf etdirmə, yazı üçün əlləri möhkəmləndirmə, yaddaşı möhkəmləndirmə, səbirli olmaq və fikri bir yerə cəmləmək kimi faydaları da var.



Milli dəyərlərimizin, qədim el sənətinin bütün sirlərini və incəliklərini gənc nəsilə öyrətmək və yaşatmaqda Xalçaçılıq dərnəyi əsas rol oynayır. Qədim tarixi ənənələrə əsaslanan xalçaçılıq Azərbaycanın tətbiqi sənət növünün ən qədim sahələrindən biridir. Tarixi mənbələrdəki məlumata görə orta əsrlərdə Azərbaycan həm xovlu, həm də xovsuz xalça istehsalının mərkəzlərindən biri olmuşdur. Xalça gözəl əl işi olmaqla yanaşı, həm də məişətdə istifadə olunan qiymətli əşyadır. Bu dərnəkdə uşaqlar rəngarəng saplardan ilmə-ilmə işlənərək ortaya çıxan milli ornamentlərin gözəlliyindən zövq alaraq çox böyük həvəslə bu qədim sənət növümüzü öyrənirlər.

Memarlıq-dizayn dərnəyi uşaqlarda mühəndislik bacarıqlarının formalaşmasına, onların düşüncə tərzləri əsasında ən son proqram təminatlarından istifadə etməklə müxtəlif müasir layihələrin hazırlanmasına geniş imkanlar açır.



Dulusçuluq Azərbaycanda sənətkarlıq istehsalının ən qədim sahələrindən olub bu günə qədər öz əhəmiyyətini saxlamışdır. Dulusçuluq dərnəyinin uşaqlar üçün faydası çoxdur. Uşaqlar gildən müxtəlif formalar düzəltməklə fərdi istedadlarını və şəxsi keyfiyyətlərini kəşf edir, özünə əminliyini artırırlar.

Dulusçuluq dəzgahında gil işləmək uşaqlara xüsusi zövq verir, onları ruhən dincəldir. Onlar gildən düzəltdiklərinə öz əməklərinin nəticəsi olaraq dəyər verir.



Bədii tikmə müxtəlif növ sap, parça, muncuq və s. bədii materiallardan istifadə etməklə tikiş tikmək üsulu ilə toxuma sənətidir. Mərkəzdə uşaqların asudə vaxtlarını səmərəli keçirmələri və tikmənin onlara aşılanması məqsədilə yaradılan Bədii tikmə dərnəyində uşaqlar qədim ənənələrə malik olan tikmə sənətinin sirlərini öyrənirlər. Tikmə sənətində ən çox rəngli ipək saplar işlədilir. Dərnəkdə şagirdlərə bədii tikmənin növləri olan güləbətin tikmə, təkəlduz tikmə, saya tikmə, xovlu tikmə, zəncirvari tikmə, doldurma tikmə, qurama tikmə, oturtma tikmə, düymələmə tikmə və s. öyrədilir.

Toxuculuq dərnəyinin yaradılması qədim el sənəti olan toxumanın gələcək nəsillərə aşılanması və bu sənət növünün yaşadılması məqsədi daşıyır. Bu dərnəkdə nənələrimizin müxtəlif janrlarda toxuma üsulları şagirdlərə öyrədilir. Toxuculuq dərnəyinə qız uşaqları böyük maraq göstərir.



Qədim dövrlərdən başlayaraq heykəltəraşlığın inkişafı öz müxtəlifliyi ilə seçilir. Qədim Misir, Yunanıstan və Romanın heykəltəraşlıq nümunələri buna misal ola bilər.

Heykəltəraşlıqda əsas obyekt insandır, burada heyvan və digər obyektlərə daha az müraciət olunur. Heykəl üçölçülü formaya malik, müəyyən mühitdə, məkanda yerləşən həcmli təsvirdir. Heykəltəraşlıq nümunələri iki qrupa ayrılır: dəyirmi və relyef (qabarıq).

Bədii və tarixi dəyərlərin cəmləşdiyi heykəltəraşlıq nümunələrinə xas olan əsas cəhət — həyatın dinamikliyini, insanın mənəvi obrazını yarada bilməsidir.

Heykəltəraşlıq dərnəyində şagirdlərə müxtəli formada və ölçüdə heykəllərin düzəldilməsi aşılanır. Tarixi ta qədimlərə gedib çıxan bu sənətin bu gün və gələcəkdə də yaşadılması məqsədilə yaradılan bu dərnəklər şagirdlərin rahat şəkildə öz fikir və düşüncələrini ifadə etmələri üçün hər cür şərait yaradır.

İnnovativ dərnəklərin yaradılması uşaqların təlimə marağının yüksəldilməsinə, asudə vaxtlarının səmərəli təşkilinə, bilik və bacarıqlarının daha da inkişaf etdirilməsinə geniş imkanlar açacaqdır.

**Məktəbəqədər uşaqlar üçün dizayn sahəsində oyunların əhəmiyyəti**



Uşaqlar üçün oyunlar yalnız əyləncə və əyləncə əyləncələri deyil, kompleks, çoxfunksiyalı və idrak prosesidir. Oyunların sayəsində uşaq cavab və davranışın yeni formalarını inkişaf etdirir, ətrafdakı dünyaya uyğundur, inkişaf edir, öyrənir və böyüyür. Buna görə, məktəbəqədər uşaqlar üçün oyunların əhəmiyyəti çox yüksəkdir, çünki bu dövr ərzində uşaq inkişafının əsas prosesləri baş verir.

Həyatının ilk illərindən uşaq oyun oynaya bilər. Bu, körpənin erkən inkişafının müasir metodlarından istifadə edən bir çox valideyn tərəfindən öyrənilməlidir. Bununla belə, danışma, yaddaş, konsentrasiyaya, diqqəti, müşahidə və düşüncə qabiliyyətində, oyun prosesində deyil, oyunlarda inkişaf etdiyini sübut edir.

Bundan əvvəl, çox inkişaf edən oyuncaq olmadığı zaman, uşaqların təhsilində əsas rol məktəb tərəfindən oynanılmışdı, burada oxumağa, yazmağa, hesablamağa öyrədilmişdir və

uşağın inkişafında əsas amillər oyun idi. Bunun üçün məktəbəqədər uşaqlar üçün təhsil oyuncaqları yaradıldı. Çünki, məktəbəqədər təhsil müəssisələrində uşaq inkişafının əsasını təşkil edən oyunlar böyük rol oynayır.



Son vaxtlar mütəxəssislər tərəfindən iki anlayış istifadə edilir. Bunlardan biri erkən inkişaf, digəri isə erkən müdaxilədir. Erkən müdaxiləni ləngimə hiss edilən körpələrimizlə bağlı, erkən inkişafı isə körpələrimizin yeni doğulduqları çağalıq dövründən etibarən istifadə edirik.

Əziz valideynlər, uşaqlarınızın erkən inkişafı üçün körpələrinizə oyuncaqlar, uşaq kitabları alın. Oyuncaqları, kitabları seçərkən körpələrinizin yaş göstəricisini mütləq nəzərə alın. Körpələrinizin sosiallığı və sosial ünsiyyəti, kiçik dialoqları oyunlarla yaranır. Oyuncaqlar körpələrinizin ilk fəallığı, ilk işləridir. İlk fəallıqlarını maraqlı edərək, körpələrinizin erkən inkişafına nail ola bilərsiniz. Uşaqlarla tez-tez işləyən, məşğul olan hər kəs ən yaxşı oyun və oyuncaqların evdə olduğunu və evdən başladığını yaxşı

bilir. Evdə sizə lazım olmayan qutularınızı belə, oyun üçün əyləncəli formaya sala və uşağınızla oyun zamanı istifadə edə bilərsiniz. Çünki ev şəraitində əl işi, əllə düzəltdiyimiz oyuncaqlar bizim üçün daha doğma sayılır.

Öncə bir neçə normativə diqqət yetirək;

Oyuncaqlarla oynamaq uşağın böyüməsində və inkişafında vacibdir...

Oyuncaqlar uşaqlar üçün təhlükəsiz olmalıdır. Oyuncaq alarkən nədən hazırlandığına, suya davamlı olub-olmadığına, kənarlarının kəskinliyinə diqqət edin. Çünki körpələr oyuncaqları ağızlarına salırlar.

Oyuncaqlar inkişafda olan sahələrə stimul verə bilər.

Vizual motor oyuncaqlar - əl-göz koordinasiyasına müsbət təsir edir və körpələrimiz həm bədən üzvünü, həm ağlını istifadə edir. ( kağız üzərində rəngləmək və s.)

Dil - nitq əsaslı oyuncaqlar nitqin inkişafına kömək edir (səsli oyuncaqlar və s.)

Ümumi (böyük) motor bacarıqları - ( məs; qaçmaq, dırmaşmaq, top atmaq, hoppanmaq və s. ) qollar, ayaqlar kimi gövdə sistemini inkişaf etdirir.

Kiçik motor bacarıqları - ( qayçı ilə kəsmədə, fırça və ya əllə boyamada istifadə olunur) əllər, barmaqlar kimi xırda

motorikanı inkişaf etdirir.

Sensor oyuncaqlar - toxunma, hissetmə bacarıqlarını stimullaşdırır, uşağın bədən üzvlərilə ağılın birlikdə istifadəsinə cəlb edir (toxuma parçalar və ya yumşaq heyvanlarla oyunlar).

Evdə istifadə etmədiyiniz qutularınızı atmayın, oyun üçün əyləncəli formada istifadə etmək üçün saxlayın:

- Müxtəlif ölçülü şokolad qutuları, plastik qutular

- Kəsik parçalar ( kleylə yapışdırmaq )

Ümumi məişət əşyalarını, istifadə etmək üçün ideyalar;

- Qazan, tava, qaşıqlarla (bıçaq, çəngəl, qayçı kimi əşyalarla 2 yaşdan sonra müşahidə və ehtiyatla istifadə edərək, öyrədə bilərsiniz) uşağınıza böyük, kiçik pozisiyaları (məs; qazan hardadır? Stolun üstündə. Qaşıq hardadır? Stolun altında), həmçinin, yanında, içində, sağında, solunda, arasında, önündə, arxasında kimi pozisiyaları da öyrədə bilərsiniz. Həmçinin, qazan və ya tavaya qaşıqla vuraraq, səsləri öyrətmək olar. Tuk-tuk, tak-tak və s. səsləri emosional çıxarın ki, körpənin diqqətini cəlb edə biləsiniz.

- Lobya, noxudla işləyə bilərsiniz. Lobya ilə noxudu bir qaba tökün. Sonra 2 ayrı qutu və qab qoyun ki, uşaq lobyanı bir qaba, noxudu digər qaba yığsın. Bu eyniləşmə, çeşidləmə sayılır. Lakin yaxşı olardı ki, bunu 2 yaşdan sonra

edəsiniz. Çünki uşaq çiy olan noxud və lobyanı ağzına ala bilər.

- Uşağınız oturmağa başlayanda 5-6 ayından etibarən salfetka, qəzet, kağız verin cırsın və ya əzsin. Beləliklə, o, hiss edəcək. Amma daim nəzarət edin ki, kiçik salfetka və kağız qırıqlarını ağzına almasın. Həmçinin, sensor, hissetmə qabiliyyətini inkişaf etdirmək üçün evdə parçanın arasına noxud və ya mərci, lobya yığaraq, parçanı tikin ki, içindəkilər tökülməsin. Hazırladığınız bu kiçik yastıqcanı övladınızın əlinə verin oynasın. Oynadıqca bərkliyi hiss edəcək.

**Yaşa görə oyuncaqlar**

0 - 3 ay

- Qırılmaz güzgü

- Ağ və qara rəngli həndəsi fiqurlar (zəka kartlarından əldə edə bilərsiniz)

- Təhlükəsiz, yumşaq çeynəmə oyuncaqlar

- Səsli oyuncaqları yuxarıdan sallayaraq oynayın. Əlini uzatsın, götürmək istəsin və həmin səsli oyuncağı sağa-sola hərəkət etdirin ki, gözləri ilə izləsin. Bununla da körpəniz sizinlə göz kontaktı yaradacaq.

- Parçadan hazırlanmış şəkilli kitablar

3 - 6 ay

- Yataqda gimnastika: Səsli oyuncaqları beşiyindən asın, ona əlini uzadıb dartsın. Bunu yerdə də edə bilərsiniz. Xalçanın üzərinə əlavə bir adyal sərin, uşağı qarnı üstə yerə uzadın, oyuncağı önünə qoyun, dartına-dartına götürməyə çalışsın. Mümkün qədər çalışın, uşağınız iməkləsin. Qarın üstə iməkləmək uşağın bütün inkişafına çox müsbət təsir edir.

- Silkələmək: Yenə səsli oyuncağı əlinə verin. Silkələməsi üçün köməklik edin.

- Parçadan hazırlanmış şəkilli kitablar.

- Yuyula bilən, balaca çıxan hissəcikləri olmayan (uşaq ağzına ala bilər) yumşaq oyuncaq heyvanlar

- Çeynənilməsi üçün təhlükəsiz oyuncaqlar

- Ana, ata və uşağın öz şəkli (ailə şəkillərinizi həm birlikdə, həm ayrı çıxarın və uşağın görə biləcəyi yerlərə qoyun )

6 - 12 ay

- Piramida kimi üst-üstə və iç-içə yığılan qutular

- Kubiklər, leqolar

- İçində meyvə, tərəvəz, hərəkətlər (əl çalma və s), bədən

üzvləri olan karton kitablar

- Valideynlə birlikdə köpüklə oynamaq (yalnız köpüyü verməyin, uda bilər)

- İpli (dartması üçün) və düyməli (basmaq üçün) oyuncaqlar, maşınlar (itələmək üçün)

12 ay və yuxarı yaşlar

- Karton şəkilli kitablar

- Deşikləri olan kartonlu, ipli oyuncaqlar (uşaq ipi kartonlu şəklin deşiyindən keçirir)

- İri düyməli oyuncaqları qutunun içinə yığmaq və deşikli qutunun deşiyindən içinə atmaq kimi oyunlar

- Kartla puzzle

- Şəkilli kartlar

- Kubiklər, leqolar

- Eyniləşməli, çeşidləmə kartlar

- Barmağa, ələ keçirilən heyvan və ya qız-oğlan oyuncaqları və s.

**Top kimə dəysə**



Yaş: 10-14

Oyunçuların sayı: 10-20 uşaq

Meydançada böyük bir dairə çəkilir. Uşaqların bir hissəsi dairənin içərisinə doluşurlar. O biri hissəsi dairənin kənarında bir birindən bir metr məsafədə dayanırlar. Dairədən kənarda olan uşaqların əllərində top olur. Oyun başlanır. İstər dairə daxilindəki uşaqlar və istərsə də dairə xaricində olan uşaqlar var-gəl edirlər. Bir-birinə ötürməklə (rəqibi aldatmaq məqsədilə) hücum təşkil etməyə cəhd göstərirlər. Dairə içərisində olan uşaqlar isə əksinə hərəkət edirlər, özlərini müdafiə etməyə, topun dəyməsindən qorunmağa çalışırlar.

**Dördbucaq ("Yer tutma")**



Yaş: 10-14

Oyunda 5 uşaq iştirak edir.

Həyətdə bir dörd bucaq şəkli çəkilir. Uşaqların hər biri bir bucaqda dayanır. Beşinci uşaq ortada dayanır. Bucaqda duran uşaqlar yerlərini dəyişdirirlər. Bu zaman ortada duran

uşaq bucaqlardan birini tutmağa çalışır. Yeri tutulan uşaq və oyunu uduzmuş hesab edilir və ortaya çıxır. Oyun bu qayda ilə davam etdirilir.

**Bayrağı tap görüm**



Yaş: 10-13

Oyunda 8-10 uşaq iştirak edir.

Oyun ləvazimatı: gözü bağlamaqdan ötrü hər bir uşaq üçün bir yaylıq.

Yaylıq uşağın özününkü olmalıdır. Uşaqlar dairə təşkil edirlər. Dairənin ortasında 8-10 addım məsafədə bayraq sancılır. Uşaqlar gözlərini yaylıqları ilə bağlayırlar. Rəhbər komanda verir: sağa, sola dön! İrəli addımla marş! və s. Uşaqlar həmin komandanı icra edirlər. Rəhbər yenidən komanda verir: bayrağa doğru marş! Uşaqlar 8-10 addım bayrağa doğru addımlayırlar. Yeni komanda verilir: dur və gözəlrini aç! uşaqlar gözlərini açır və mərkəzdəki bayrağa baxırlar.

Kim addımlayaraq bayrağa daha yaxın gəlibsə, həmin uşaqlar qalib hesab olunur. Beləliklə, oyun bir neçə dəfə davam edir. Bayrağı görməmək şərti ilə dəsmal gözə bağlanmalıdır.

**Gizlən, səni görməsinlər**



Yaş: 10-13

Oyunda 10-20 uşaq iştirak edir.

Oyun kol-koslu, kələ-kötürlü, enişli-yoxuşlu, dərəli-təpəli yerlərdə oynanılır.

Uşaqlar bir kənarda sıraya düzülürlər. Bir rəhbər və bir "aparıcı" seçirlər. Aparıcı 50-100 addım qabağa keçir və arxası uşaqlara durur. Rəhbər fit verir, uşaqlar hərəsi bir kolun, ya təpənin dalında gizlənirlər. Rəhbər ikinci dəfə fit verir, aparıcı çevrilir və bir dəqiqə müddətində baxır. Görə bildiyi uşağı adı ilə çağırır. Gizlənə bilməyib görünən uşaqlar oyundan çıxarılır. Sonra rəhbər yenə də fit çalır, uşaqlar isə qaçıb ağacların, kol-kosun, daşların arxasında gizlənirlər. Bu qayda ilə oyun davam edir. Gizlənmə müddətində gizlənən uşaqlardan biri top ilə aparıcını vura bilirsə, o uşaq aparıcı rolunda çıxış edir. Bütün uşaqlar tapıldıqdan sonra oyun bitir.

Oyunun daha da səmərəli təşkili və keçirilməsi başlıca şərtlərdən sayılır. Burada oyunçu aparıcı tərəfindən tapıldıqda o cığallıq etməməli, könüllü olaraq uduzduğunu etiraf etməli və digər oyun. İştirakçılarının narazılığına şərait yaratmamalıdır.

Oyunda başlıca məqsəd hər hansı bir xoşagəlməz hadisə baş verdikdə (fövqalədə vəziyyət, müharibədə düşməndən özünü qoruyub ona zərbə endirmək) cəldlik göstərib tam olaraq qaçıb gizlənmək, özünü təhlükədən qorumaq, lazım gəlsə, gizləndiyi yerdən çıxıb

düşməni məhv etmək və s. keyfiyyətləri aşılamaqdan ibarətdir.



Uşaq oyunu inkişaf üçün böyük əhəmiyyət kəsb edir. Uşaq nə qədər çox oynayarsa, dərketmə, yetkinləşmə, həyata pozitiv münasibət bir o qədər yüksək olar.

Oyunlar bizi hər yerdə əhatə edir: tamaşalar, biznes davranışları, futbol matçları, elmi araşdırmalar da oyundur. Uşaqlar, böyüklər və hətta heyvanlar da oynayırlar. Top arxasınca qaçan itlər, suda tullanan delfinlər – bütün bunlar oyun davranışını nümayiş etdirir. XIX əsrdə hesab edilirdi ki, oyun insanı başqa varlıqlardan fərqləndirir. Alimlərin gəldiyi nəticə ondan ibarətdir ki, oyun davranışı həyati zərurətdir; o, istənilən şəraitə uygunlaşmağa kömək edir.

## Kitabxanada dizayn sahəsi ilə bağlı yaş həddinə görə oyunlar

### Manipulyativ oyun (embrional inkişafın 3-4 ayından)



1,5 yaşa qədər olan uşaqlar üçün bunlar mühüm fəaliyyətdir - tullamaq, diyirlətmək, gizlətmək, tapmaq, formanı dəyişmək, xışıldatmaq, cingildətmək, səpələmək. Belə eksperimentlər bəzən böyükləri narahat edə bilər, amma bunlar daim uşağın həyatında olmalıdır.

### Simvolik oyun (1,5-1,8 yaş)



Bu oyun uşağın obyektə yeni funksiyalar verə biləcəyi zaman başlayır: çörək dilimi taca, çubuq gəlinciyə, stul isə maşına çevrilir. Burada təxəyyül, təfəkkür və yumor hissi formalaşır. Sizin qarşınıza sosislərdən hazırlanmış qatar çıxanda, ona çəngəldən parovoz hazırlayın.

**Rollu oyun (2-3 yaş)**



Burada artıq əşya deyil, uşaq özü obrazları öz üzərində ölçür: sosial rolları məşq edir, pişik yaxud da dinozavra çevrilir. Uşagın seçdiyi rola görə onun güclü və zəif yerini aşkar etmək olar. Rollu oyun yeni situasiyaların qavranılması ücün yaxşı üsuldur: əgər ailə səyahətə hazırlaşırsa, bundan öncə bir neçə dəfə səyahət oyunu oynamaq lazımdır. Bu halda informasiya uşaq tərəfindən mənimsəniləcək və o, adi həyatda bu informasiyadan istifadə edəcək. Rollu oyun bütün həyat boyu bizimlə olacaq, əgər biz onu uşaqlıqda yaxşı oynayırıqsa, yetkin yaşlarda müxtəlif həyati situasiyaları yaxşı anlayacağıq.

**Süjetli rol oyunu (3-4 yaş)**



Bu mərhələdə oyunçunun sadəcə rolu yoxdur, hər zaman onunla nəsə baş verir: o yalnız qılınc oynadan dəniz quldduru deyil, gəmiyə əyləşib dənizdə üzən, orada akulaların hücumuna məruz qalan dəniz quldurudur. Süjetli rol oyununda güclü emosiyalar olur.

Müasir uşaqlar süjetli rol oyununu adətən çox pis oynayırlar, ona görə ki, 3-4 yaşlarından biz onları öyrətməyə başlayırıq, məşğələ cədvəli hazırlayır, hərfləri və rəqəmləri göstəririk.

**Rejissor oyunu (4-5)**



Bu, daha çox məharət tələb edir. Bu cür oyun uzun müddət (aylarla) davam edər, çoxsüjetli olub müxtəlif formalar ala bilər. Hər gün cürbəcür əhvalatlar uydurmaq, dostlarla birgə yay boyunca ağacda evciyi olan Robin Qudu oynamaq, səyyar sirk haqqında silsilə komikslər hazırlamaq - bütün bunlar rejissor oyunları adlanır.

Belə bir oyunu hazırlayıb davam etdirə bilən uşağın nəinki təfəkkürü və nitqi inkişaf edir, o həm də öz yaşıdları arasında liderlik qazanır.

**Stolüstü oyunlar**



Stolüstü oyunlar ona görə yaxşıdır ki, adətən məhz üz-üzə gələndə uşaq və valideynlərin maraqları birləşir, burada ürəkdən ailəvi əylənmək daha da asanlaşır. Təəccübləndirən fakt: uşaq I sinifdə dərsin 35 dəqiqəsini bir yerdə məcburi oturur, halbuki o, stolüstü oyun oynayarkən həmin stol arxasında rahat və eyni zamanda fikrini bir yerə cəmləmiş şəkildə 2 saat keçirə bilir. Bu, özünüidarəetmə və təmkinin mütəmadi məşqləridir. İnsan könüllü oyun arxasına oturur, onun qaydalarını qəbul edir və öz istəyi ilə təkcə sevinc

deyil, kədər, məyusluq hisslərini də yaşayaraq mürəkkəb məsələləri həll edir.

**Məğlubiyyət və uduş**



Burada valideynlər tez-tez oyunun bütün mənzərəsini pozurlar, ya qəsdən uduzur, ya da əksinə, uşağa qələbə qazanmağa imkan vermirlər. Bu, düzgün yanaşma deyil. Əvəzində zəif oyunçuya qabaqçadan üstünlük vermək olar. Məğlubiyyət özü də dəyərli təcrübədir.

**Yarışma**



Bu anı valideynlər tez-tez manipulyasiya (kələk, hiylə) üçün istifadə edirlər: “Haydı, görək kim daha tez ayaqqabısının bağını bağlayacaq?”, “Kim qabları təmiz yuyacaq?” Psixoloqlar lazımsız yarışmalarla əylənməyi məsləhət

görmürlər, həyatda onsuz da rəqabət və gərginlik kifayət qədərdir.

**Oyunu öz həyatınıza necə qaytarmalı?**

Sirr ondadır ki, kubu üst-üstə məcburi qoyan analar deyil, öz-özü ilə oynayan böyüklər uşağı daha çox həvəsləndirir. Ona görə də "Yaraşıqlı poni" oyununda uduzduğunuza görə özünüzü tənbeh etdikdən sonra fikirləşin, sizin şəxsi oyununuz nədir? Ola bilər ki, asfaltda çatlar üzərindən bir ayaqla tullanmaq, qafiyələr fikirləşmək və ya çay boyu qayıqlar buraxmaq - nə oynadığınız elə də vacib deyil.

Sadəcə oyundakı vəziyyətinizi uşaqla bölüşmək, ona uçuş və sevinc hisslərini çatdırmaq lazımdır. Bunun necə gözəl olduğunu başa düşdükdə, uşaqda öz oyununu tapmaq şansı yaranacaq.

Oyunun sirri xırdalıqlarda ola bilər: sadəlöhv olun, özünüzü səfehliyə qoyun, quru yarpaqları xışıldatın, lövhələrdəki yazıları səhv vurğularla oxuyun, şorbanı tilsimli eliksir hazırlayırmışsınız kimi bişirin. Özünüzə səhv etmək ixtiyarı verin, axtarın və qorxmayın!

Və sonda **ailəvi oyunların qaydaları:**

İstəmədikdə oynamamaq;

Oyun zamanı qaydaları dəyişməmək;

Razılaşma əldə etmək;

Səmimi olmaq;

Təslim olmamaq;

Ehtiyac olmadan oyunu dağıtmamaq;

Lağa qoymamaq və aldatmamaq;

Hökm nümayiş etdirməmək;
Digər oyunçuların hisslərini anlamaq.
Müasir psixoloqlar təhsilin daha güclü olduğunu və bəzən uşağın həyatına daha çox nüfuz edəcəyindən narahatdırlar, bəzən onun vaxtının çox hissəsini işğal edirlər. Onlar uşaqların uşaqlığının qorunmasına və oyun oynama imkanına çağırırlar. Bu tendensiyanın bir səbəbi ondan ibarətdir ki, uşaqla daim oynaya bilən bir adam yox, tək oynayan zaman oyunlar maraqlı deyil. Valideynlər iş vaxtında çox vaxt sərf edirlər, əgər qardaşlar və ya bacılar varsa, məsələn, məktəbdə ola bilərlər, uşaq özünə buraxılır və minlərlə oyuncaq olsa belə, tezliklə onlara maraqlarını itirəcəkdir. Bütün sonra, oyun oyuncaqlar sayı deyil, bir prosesdir. Uşaq oyunları yalnız oyuncaqların istifadəsi ilə deyil, uşaqların fantaziyası bir təyyarə və ya quşu uçan ata çevirməyə kömək edəcək və bir evə qatlanmış bir kağız parçası.

Mobil oyunlar (salochki, gizlət və axtar, lapta, damlama), masa (şahmat, dama, lotto, bulmacalar, mozaika, domino, mantıksal və strateji oyunlar), kompüter (yaddaş və diqqət inkişafı, strateji və məntiq) inkişaf etdirilir. Interaktiv oyunlar, məsələn, "qızı analar" da faydalıdır. Bu cür oyun uşağın davranışının yeni formasını inkişaf etdirməyə kömək edir, digər insanlarla qarşılıqlı əlaqədə olmağa öyrədir. Bir uşağın yetişdirilməsi prosesi ilə, oyunları da böyüyür, oyunların əvəzinə komanda oyunları (basketbol, futbol, voleybol) əvəz olunur, məğlubiyyətlərin acısını və qələbələrin sevincini anlayarkən, uşağın emosional-məşvərətli sahəsi inkişaf edir.

Uşaqlar üçün oyunlarda əhəmiyyətsiz deyil, qaydada oyunda uşağın necə oynaya biləcəyiniz və necə oynaya bilməyəcəyinizi, necə və necə davranmamağınızı təyin edən xüsusi qaydalar var. Uşaqlıqdan gələn qaydalara uyğun oynamağa alışdıqda, uşaq gələcəkdə sosial normalara riayət etməyə çalışacaq və bu cür adətə adaptasiya etmək üçün belə bir vərdiş yaratmayan bir uşaq üçün çətin olacaq və bu cür sərt məhdudiyyətlərə riayət etməyi niyə başa düşə bilməz.

Uşaq oyununun xüsusiyyətlərinə görə, uşağın psixoloji və intellektual inkişafı barədə də hökm verə bilər. Məsələn, oyunlar daim təkrarlanırsa, onlar ritual bir xarakter daşıyır və bu uzun müddət davam edir, psixoloqun məsləhətini axtarmaq lazımdır.

Yaşla bağlı olaraq, məktəbəqədər uşaqlar üçün oyunların növü və təbiəti fərqli olmalıdır. Yəni:

- 1.5 yaşdan yuxarı olan uşaqlar üçün - mövzu oyun. Yürüyüş, qaçış və atma əsas oyun əməliyyatlarıdır.

- 1.5 ildən 4 ilədək olan uşaqlar üçün - sensor-motor oyunları. Uşaq obyektlərə toxunur, hərəkət edir, fərqli əməliyyatlar aparır, toxunma hissi alır. Çox vaxt, dörd yaşındakı uşaq zaten gizlətmək, getmək və tutmaq, bir salıncak, velosiped sürmək oynayır.

- 5 yaşdan yuxarı olan uşaqlar üçün - fantaziya, yaradıcılıq, təsəvvür elementlərini özündə birləşdirən çoxsaylı oyunlar, strukturlaşdırılmış və təşkil olunmalıdır.

**Gənclərimizin yeni yaradıcılıq növləri ilə məşğul olması sevindiricidir.** Bu məqsədlə kitabxanalarda, mədəniyyət müəssisələrində dizayn sənəti ilə bağlı müsabiqələr təşkil olunur. Müsabiqəyə dizayner sahəsinə marağın olan uşaqların əsərləri təqdim olunur. İştirakçılar 10 kateqoriya üzrə layihələrini təqdim ediblər: brendinq, qablaşdırma dizaynı, illüstrasiya, veb-dizayn, sənaye dizaynı, tətbiqetmə (app) dizaynı, interyer dizaynı, eksteryer dizaynı, çap dizaynı, outdoor dizaynı. Həmçinin 2019-cu ildə Bakı şəhərinin UNESCO-nun "Yaradıcı şəhərlər şəbəkəsi"nə daxil edilməsi münasibətilə paytaxtımızın dizayn loqosunun hazırlanması nominasiyası üzrə də işlər qəbul olunur. Münsiflərin seçimindən sonra hər nominasiya üzrə bir nəfər qalib elan olunur. Bakı şəhərinin UNESCO-nun "Yaradıcı şəhərlər şəbəkəsi"nə qoşulmasını ölkəmiz üçün tarixi hadisədir. Qeyd etdi ki, hazırda bu şəbəkəyə 246 şəhər daxildir. Şəhərlər bu siyahıya incəsənət və sənətkarlıq, xalq sənəti, dizayn, kinematoqrafiya, qastronomiya, ədəbiyyat, media və musiqi kateqoriyaları üzrə salınır. Bakı bu şəbəkəyə "dizayn" tematikası üzrə daxil edilib.

"Paytaxtımızın "Yaradıcı şəhərlər şəbəkəsi"nə qoşulması heç də təsadüfi deyil. Çünki Azərbaycan xalqı ta qədimdən öz fərqli düşüncələri ilə seçilən millət olub. Qobustanda qayalar üzərində çəkilən təsvirlər buna nümunədir. Bu gün gənclərimizin yeni yaradıcılıq növləri ilə məşğul olması bizi sevindirir. Məhz onların sayəsində ölkəmiz daha da inkişaf edərək dünyanın ən güclü dövlətləri sırasında yer alacaqdır.

**Ədəbiyyat siyahısı:**

Cəfərzadə K. Təsviri incəsənət 7 : Dərslik 7-ci sinif. - Bakı : Bakı nəşriyyatı, 2019. - 96 s.

Nağıyev N. Azərbaycan Respublikasının müasir dövr memarlıq tarixi. V cild. - Bakı : Şərq-Qərb, 2013. - 352 s.

Azərbaycan incəsənəti - təsviri sənət, dekorativ-tətbiqi sənət, memarlıq. II-III cild. - Bakı : Letterpress, 2011. - 200 s.

Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 97-ci ildönümünə həsr olunmuş "Kitabxana-informasiya fəaliyyətində innovasiyalar və yeni əsrin çağırışları" mövzusunda respublika elmi konfransının materialları : Bakı, 9-10 iyun 2020-ci il. - Bakı : Bakı Dövlət Universiteti Nəşriyyatı, 2020. - 134 s.

Quliyev O. Azərbaycanda şəhər əhalisinə kitabxana-informasiya xidməti : Monoqrafiya. - Bakı : Mütərcim, 2018. - 208 s.

Məmmədova L. Azərbaycan kitabxanaları modernləşmə yollarında : Sorğu materialları əsasında. - Bakı : Apostrof, 2012. - 75 s.

Əfəndiyev T. Mədəniyyətdə tarixilik və müasirlik. - Bakı : Təhsil, 2011. - 392 s.

https://news.milli.az/health/602258.html

http://www.tipii.edu.az/az/article/390-oyun

https://qadin.net/hamilelik_ve_analiq/ev_mektebi/64948-hazr-deyil-azrbaycan-milli-uaq-oyunlar-6.html

# Dizayn sənəti və uşaqların bədii – estetik təfəkkürünün inkişafında uşaq kitabxanalarının rolu

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Ruhiyyə Məmmədli**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**